5 Şair və təbiət

TƏBİƏTİN QANUNU

Təbiət! Sevirəm, demişəm müdam –
Sənin hikmətinə alqış, min alqış!
Yerə çiləyirsən çox səxavətlə
Yayı bolca isti, qışı qar, yağış.

Təbiət! Həm məftun, həm minnətdaram
Sənin dövlotinə, sənin varına.
Bir də ona görə çox sevirəm ki,
Sadiqsən öz möhkəm qanunlarına.

1976

QÜDRƏT

Bir iş növü deyin, göstərin ki siz
O qəlbin işi tək ağır iş olsun.
Bir motor göstərin, polad bir motor,
Yetmiş il müttəsil işləmiş olsun.

İnsan möcüzələr yaratsa belə,
Öyrənir xilqətin hər əməlindən...
Böyük təbiətin sehirkar əli,
İncədir, zərifdir insan əlindən.

Yumruq boyda ətin dözümünə bax,
Yükləsən fil dözməz onun yükünə.
"Min şükür!" deyirik, təbiətin biz,
Sonsuz qüdrətinə, böyüklüyünə!..

1976

TƏBİƏT

Sirlər dünyasıdır bu dünya başdan,
Tükənən deyildir onu deməklə...
Təbiətdən güclü, qadir, möhtəşəm,
Bir qüdrət, bir qüvvət bilmirəm hələ.

Mən ona şadam ki, hələ canlıyam,
Ayrılmaz üzvüyəm mən təbiətin.
Kim bilir, bəlkə də sirri bundadır,
Təbiətə olan bu məhəbbətin!

1976

ƏBƏDİYYƏT BƏXŞ EDİB

– Təbiətin, bilirəm
Səxavəti boldur, bol.
Daha ölüm yox mənə,
Qapımıza neçə yol
Əcəl gəlib boş gedib!
Dünya fanidir, demə,
Bunu demişlər yüz yol.
– Dostum, heç öyünmə çox,
İstər böyük alim ol,
İstər böyük bir ədib...
Gedəcəksən... bəlkə də,
Xoş baxan var üzünə...
Lakin bil, heç kəsə yox,
Dünya bircə özünə
Əbədiyyət bəxş edib...

1978

ƏMƏK VƏ TƏBİƏT

Əmək, zəhmət insanın,
Nemət təbiətindir.
Təbiəti dəyişmək,
Hər bir şeydən çətindir!
İnsan öz qüdrətiylə
Dəyişdikcə iqlimi,
Dəyişir gündən-günə
O da təbiət kimi...

1965

QANUNİYYƏT

Qanunu var təbiətin
Öz vaxtında hər ay çıxır,
Öz vaxtında hər il gəlir.
Qanunu yox bu dünyanın
Gah ev tikir, gah ev yıxır...
Nəsil köçür, nəsil gəlir.

1975

QARAYAZI

Yaz olanda yaşıllaşır,
gülür yamacın-yalın.
Cüyür, ceyran qaça bilmir
koma qalın, kol qalın...
Bəyin, xanın xatirinə,
yaralandı maralın.
Sənin keçmiş tarixində
yazıldı qara yazı;
Qarayazı, Qarayazı,
sevimli Qarayazı!..

Sinən boyu axıb gedən
Xrammı, yoxsa Kürmü?
Qar əridi... Boz kötüklər
dalğalarda üzürmü?
Göylərində durna səfi
qaqqıldaşıb süzürmü?
Qulağımdan heç getməyir,
o quşların avazı.
Mən onları dinləyirəm
sevimli Qarayazı!

Heç ürəkdən gülməz idim
çiçəklər ölkəsində –
Gəncliyimin bahar çağı,
boranlı keçdi səndə.
Saç dağından qanadlanıb
dəli yellər əsəndə,
Qamışlarla bir çalındı,
könlümün sınıq sazı...
İndi sazı təzələdim,
sevimli Qarayazı!

Yaşıl zoğal tez boy atdı –
biri oldu bir qulac,
Salxımlandı ala söyüd,
çiçəkləndi qarağac.
Şair sənə qonaq gəlsə,
sarmaşıqdan bir yol aç.
Əsirgəmə boz turacı,
göy ördəyi, ağ qazı,
Hörmətini unutmaram,
sevimli Qarayazı!

1935

ANLAYAR MƏNİ

Təbiət böyükdür, əzəmətlidir,
Qəlbində saxlayır min sirr, min hikmət...
İnsanla əl-ələ verdiyi zaman,
Daha da qüdrətli olur təbiət...

Yaradanı olmuş əsirlər boyu,
Möcüzələr dolu neçə əsərin.
Ondan öyrənmişik... odur memarı,
İlkin sənətkarı gözəlliklərin.

Ölçüsü-biçisi təbiət olmuş
Bizim ataların, dostun, tanışın.
Onların dilindən düşməmiş bir gün
Arzusu baharın, qayğısı qışın...

Qürurum dağların zirvəsindədir –
Onunla köklənib könlümün simi.
Səsim ağ çayların ğur səsindədir –
Mən ondan almışam ilkin dərsimi.

Pərəstiş edirəm təbiətə mən,
Sonra görən, bilən danlayar məni...
Dilim təbiətə bir az yaxındır,
Danışsam təbiət anlayar məni.

1977

BİLİR

Dənliyi dolanda bülbül oxuyur,
"Səni axtarıram, hardasan, gülüm?"
Ağrı hiss edir o tikan batanda,
Lakin heç yadına düşməyir ölüm.

Ömrünün sonunu düşünmür insan,
Azca o yatdımı, oldumu xəstə.
Elə bil hiss edir - hərdənbir duyur,
Ölüm qılıncını başının üstə.

Bütün canlıların əşrəfi insan,
Bir bunda bədbəxtdir – bəlkə təkdir o.
Vaxtını bilməyir, lakin dünyadan,
Bilir əzəl-axır köçəcəkdir o.

1978

TƏBİƏTİN SƏHVİ

Bir haqsızlıq edibsən,
Ey təbiət danma gəl.
Bunu indi bilirsən,
Gərək biləydin əzəl.

Nə yamanlıq görmüşdün,
Nə idi sənin qəsdin.
Ölüm haqda bizi də,
Bir çibinə tay etdin.

Niyə gördün belə bir
Haqsızlığı aləmdə?
Kiçik böcək də ölür,
Mütəfəkkir alim də.

Adam bilir önündə
Uzaq-yaxın ölüm var.
Narahatdır hər zaman,
Onu sıxır qayğılar.

Xoşbəxtdir, yaratmısan
Var elə canlılar, var.
Qarşısında ölümü,
Görməyib yaşayanlar.

Bir gör necə ağırdır,
İnsan üçün özün bax.
Əmanət olduğunu,
Bilə-bilə yaşamaq.

De, həm kədər, həm fərəh
Sığışarmı bir cana?
Ya ölüm verməyəydi,
Ya da şüur insana.

TƏBİƏT İNSAFLIDIR

(Birisi belə deyirdi)

Adam var olmasa da
Başında kamal, bilik.
Ona çox kömək edir
Yaltaqlıq, üzgörənlik.

Təbiət çömçə-çömçə
Yaltaqlıq paylayanda,
Mənə çatan zamanı,
Çömçə düşdü əlindən.
Düzü buna şadam mən.

Əfsanəyə oxşayır
Biraz həqiqət də var.
Dediyim bu yalanda.
Nə yaxşı ki, təbiət
Mənə heç pay verməyib
Yaltaqlıq paylayanda.

1980

İSTİ GÜN OLAYDI...

Yazı yola saldıq, uğurlar deyə!
Axır günləridir bu günlər yayın.
Aylar, günlər burda aydın yazılıb,
Buyurun, təqvimi alın, yoxlayın!

"Qora bişirən"də yanardı yer, göy,
Sözümə kim şübhə edər, kim mənim.
İyulda havalar elə soyudu,
İsti gün istəyir ürəyim mənim.

1977

ARANIM, DAĞIM

Qonşu mənə baxıb, gileylənirdi:
– Nə vaxtdır şəhərdən heç çıxmayırsan?
Qışı çətin deyil, lakin yayları
Burada yaşamaq deyildir asan.

Qorxulu deyildir mənim üçün heç,
İstidə, bürküdə yayda qalmağım.
Güzəranım keçir aranlı, dağlı,
Evim aranımdır, eyvan yaylağımı.

1977

YARATMAMIŞDIR

Təbiət güclüdür, qadirdir, lakin
Gör neçə bahardır, gör neçə qışdır. –
Özü görə bilən öz simasını,
Bir canlı, bir cansız yaratmamışdır.

1975

QARA TORPAQ

Gedirsən: yaxşı yol!
Bir-iki qoyluq
qara torpaq gətir,
kənddən gələndə.
Əvəzində onun
mən də

Minnətdarlıqla sizə,
Bir şeir yazaram
doğma kəndimizə.
Güllərimin torpağı
yaman azalıb, – dedim,
Dibçəklərin dibindəcə
qalıb, – dedim.
– Nə qədər torpaq gərəkdir,
Sizin güllərə, çiçəklərə
Bir vaqon bəsdirmi? –
deyib, güldü qonaq.
– Yox, – dedim –
bir tabaq,
bircə çanaq,
qara torpaq,
Yola saldım, getdi qonaq...
Torpaq!
Bircə tabaq!
Bircə çanaq –
qara torpaq!
Bir gör
Nə günə qalmısan, şair!
Bircə çanaq qara torpaq?
Fikirlər
başımı yordu bu axşam...
Gör, yerdən, – dedim –
Nə qədər uzaqlaşmışam,
uzaqlaşmışam!..

HƏDİYYƏ

Ayağım torpaqdan üzülsə bir gün
Düşərəm taqətdən, düşərəm əldən,
Mən ağ günlərimi ağ buludda yox,
Bu qara torpaqda gəzdim, əzəldən.

Təbiət böyükdür, zəngindir, lakin
Şeriyyət aləmi daha genişdir –
Biz elə dostuq ki, hələ o məndən,
Bircə sirrini də gizlətməmişdir.

Buyurun, şərh edim bircə çiçəkdə
Müxtəlif rəngini, otrini yerin...
Bunun əvəzində, yazları siz də,
Mənə bircə dəstə bənövşə verin!..

Bakı, mart, 1968

MƏHƏBBƏT FƏSLİ

Elə ki, yaz gəlir canlanır həyat –
Min məna kəsb edir süzgün baxışlar...
Qışda sevənlər də az deyil, lakin
Baharda sevənlər yanılmamışlar!..

Bakı, mart, 1968

DAĞ VƏ TƏPƏ

Dağa - dağ deyirlər, çünki o dağdır!
Yenidən boy atıb təpə - dağ olmaz!
Çalış dağa dayan, təpə nədir ki,
Sənin dar günündə o dayaq olmaz!..

1966

TORPAQ VƏ SU

Böyüklük ucalıq, əzəmət, vüqar
Müdam heyran edir, insanı heyran!
Bəlkə ona görə xəyalpərəstlər,
Göylərə boylanır yerdən hər zaman?..

Onların məskəni göylər olsaydı
Baxıb deyərdilər: "Nə gözəldi yer!
Ey yerlər tanrısı, qırıldıq, bizə,
Bir ovuc torpaq ver, bir ovuc su ver!"

Nalçik, avqust, 1966

QARA TORPAQ

Bu yaxşı cəhətdir, unutmayırsan –
Görürəm gəlirsən hərdən bağa da.
Bircə meyvələrə baxırsan, ey dost,
Sən göz qoy arabir bu torpağa da.

Torpağa qulluq et, yoxsa nə çıxar,
Min dəfə budağa, gülə baxmaqdan?
Budaqlar gövdədən, gövdə köklərdən,
Köklər də can alır qara torpaqdan.

Məni kim tanımır, görməyən kimdir?
Öyünmək bilmirəm, demirəm ağam.
Özüm kağız kimi ağ olmasam da,
Üzləri ağardan qara torpağam.

1976

KRIM BƏNÖVŞƏSİ

Ellər bilir yarananda bağlıdır
Ömrüm boyu meylim sənə, bənövşə.
Yaman aldın əzəl başdan əqlimi,
Neylim sənə, neylim sənə, bənövşə!?

Çəkilir torpaqdan qışın ayazı,
Bizə qonaq gəlir ellərin yazı.
Mən səni min dəfə görmüşəm azı,
Görmək istəyirəm yenə, bənövşə.

Dinlə məni, ey həmdəmim, sözüm var!
Bəlkə sənə xoş gəlməyir mahnılar.
Şair əhli gözəllərə söz qoşar,
Fikir vermə mən deyənə, bənövşə.

Bahar çağı sərin yellər əsəndə,
Uçan xəyalımı tapıram səndə.
Vaqif bu dünyadan köçüb gedəndə,
O səni tapşırdı mənə, bənövşə.

Gördüm əl uzadır sənə hər yetən,
Tezcə özüm dərdim, heyif körpəsən...
Min bir dəmət borcluyam hələ mən
Bu ölkəyə, bu vətənə, bənövşə.

Livadiya, 1939

VƏFASIZ OLDU

Sahil, qumlu sahil qaldı uzaqda,
Dəniz, qədim dostum çəkildi getdi.
Uçan dalğaların göy yalmanında
Üzdü qağayılar, gözümdən itdi.

Dəniz guruldayır, sahil səslənir,
Sular bir məqamda durmayır bir an,
Bayaq quzu kimi yatırdı... indi
Tələtüm, çarpışma, ayrılıq, hicran...

Gümüş dalğalarda yosunlar yuyub,
İpək saçlarını darayır hərdən.
Qoca kainatın min bir sirri var,
Gəl baş tap dünyanın işdəklərindən.

Külək hardan əsdi, hansı tərəfdən,
Dalğalar yenidən çəkildi səflə,
Yosunlar öz ipək saçını yoldu.
Cavabsız bir sual qaldı başımda –
Sahilmi dənizi qəbul etmədi,
Dənizmi sahilə vəfasız oldu?..

BƏNÖVŞƏ

Yaşadım çöllərdə on il, on beş il,
Yağışda, yağmurda günüm olmadı;
Dostlar yaxşı bilir, mənə yad deyil
Çiçəklərin adı, quşların adı...

Mənə sirdaş oldu Günəş, Ay, ülkər,
Dərələrin çayı, dağların qarı;
Ömrümə yar oldu uzun sənələr,
Xramın sahili, Kürün kənarı.

Dumanlı səhərlər, çənli axşamlar,
Keçəli çadırlar, yeraltı damlar.
Olduqca məskənim, olduqca yuvam,
Yamaqlı şalvarım, yamaqlı çuxam.
Vüqarlı başımı saldı aşağı,
Çıxdı gözlərimə qəlbimin dağı...

Ələmdən, kədərdən qaça bilmədim,
Ciyərim həsrətlə alışdı, yandı.
Könlümü kimsəyə açа bilmədim,
Cırıq paltarımdan eşqim utandı.
Çox gəzdim özümə vəfalı həmdəm,
Fəqət, dilbərimdən görmədim kərəm...
Gəzib, talaları, mən dolaşanda,
Min dəfə gözümə gözün ilişdi,

Yaşımız çatsa da yüzə, yüz birə,
Bizə ilham verər işlər, əməllər...
Haqqı var vüqarla dərə, gəzdirə,
Səni bu qumsalda bitirən əllər.

Yaxın gəl, dostunu dindir, danışdır,
Görüşmək pis deyil hərdən mənimlə...
Köhnə mahnılarım sənə tanışdır,
Gəl, yenə mahnımı bir dəfə dinlə!

Biz çoxdan ayrıldıq yaldan-yamacdan;
Dəyişdi təbiət, dəyişdi insan...
Məni unutmadın, yenə heç zaman –
Gəlib şəhərlərdə sordun halımı,
Sən, ey köhnə dostum, təzə bənövşə!

Qüdrətim, fitrətim, işim, əməyim,
Uzun sətirlərim, bərim-bəzəyim,
Xəyalım, düşüncəm, dilim, diləyim
İstərəm səhərlər səninlə hər gün,
Dolanıb əllərdə gəzə, bənövşə!

Hər yeni şəhərə, hər yeni kəndə,
Bayramdan-bayrama qonaq gələndə,
Səsim tutduğunca deyirəm mən də: –
Bu ana yurdumun asıl döşündən,
Sən də ölkəmizi bəzə, bənövşə!..

Bakı, 1937

Cənublu qardaşlarıma

A DOSTLAR

Yenə qaşlarınız niyə çatıldı,
Deyin, qəlbinizdə nə var, a dostlar?!
Söyləyin, hər yandan sıxırmı sizi,
Qalın daş divarlı hasar, a dostlar!..

Toxundu qəlbimə bu gün bir baxış,
Bilirəm, çox vurub onu qar, yağış...
Sizi qorxutmasın nə boran, nə qış,
Gələr mövsimində bahar, a dostlar!..

Boşa getməyəcək axan bu qanlar,
Bu vəhşi qırğınlar, vəhşi talanlar,
Bir gün döyülənlər, ayaqlananlar
Öz intiqamını alar, a dostlar!..

Vaxt olar burada dəyişər zaman:
Dağların döşündən çəkilər duman,
Xalqın aşıqları Ərkin[1] başından
Sədəfli sazını çalar, a dostlar!

Şərəfli bir ümid, böyük bir inam,
Bizi düşündürür hər səhər-axşam...
Haraya üz qoysam, harada olsam,
Əliniz əlimdə qalar, a dostlar!

Təbriz, aprel, 1942

[1] *Ərk* *Təbrizdə qədim bir qaladır.*

BİRİNCİ DƏRS

(Təbriz məktəbində)

Məktəb al geyinir bayram qabağı,
Onun yollarına güllər tökülür.
Şəndir müəllimin qaşı-qabağı,
Körpə uşaqların gözləri gülür...
Şahın şəkli yoxdur, divara bax bir,
İndi Səttarxandır seyr edən bizi.
Əziz körpələri görüb sevinir
Nizami, Füzuli, Saib Təbrizi...
Müəllim şagirdə dedi inamla:
Gəl yaz, söz azaddır indi ölkədə...
Gəlib çox həvəslə, çox ehtiramla,
İki kəlmə yazdı şagird lövhədə.
Bir fərəh götürdü tez şagirdləri,
Sevincdən parlayan gözlər alışdı.
Kim bilir, kim bilir nə vaxtdan bəri
Bu sözlər lövhəyə yazılmamışdı...
Hamı bir ağızdan edincə təkrar,
Sözlə qanadlanıb dağları aşdı.
Dolandı, bir yerdə tutmadı qərar –
Azəri yurdunu gəzdi, dolaşdı.
Sonra havalandı, gəldi cövlana,
İran torpağını, gəzdi sərbəsər...
Elə ki, yetişdi bu səs Tehrana,
Titrədi yerbəyer məclisdəkilər.
Çox yazdı, çox pozdu hökmdar; ancaq
Hökmü dövran verdi, zəmanə yazdı..
Öz doğma dilində məktəbli uşaq
Bir "vətən" söylədi, bir "ana" yazdı.
Təkcə körpələrin deyil ki, inan,
Bu dərs lap şahın da yadında qaldı...
Kim qıfıl asmışdı xalqın dilindən,
O da öz dərsini bu gündən aldı.

Bakı, dekabr, 1945